# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olan əcnəbilərin 2012-ci il üçün əmək miqrasiyası kvotasının təsdiq edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2010-cu il 30 avqust tarixli 83 nömrəli qərarı ilə təsdiq edilmiş «Naxçıvan Muxtar Respublikası ərazisində əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası»nın 1.2-ci bəndinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin 2011-ci il 12 avqust tarixli 1/298 nömrəli və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2011-ci il 22 avqust tarixli 04/490 nömrəli məktubları nəzərə alınsın.
2. Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə 2012-ci il üçün müəyyən edilmiş əmək miqrasiyası kvotası təsdiq edilsin (əlavə olunur).
3. Bu qərar 01 yanvar 2012-ci ildən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

02 sentyabr 2011-ci il

№ 84

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 02 sentyabr tarixli 84 nömrəli qərarı ilə təsdiq edilmişdir

**Naxçıvan Muxtar Respublikası ərazisində iqtisadi fəaliyyət sahələri üzrə** 2012-c**i il üçün müəyyən edilmiş əmək miqrasiyası kvotası**

| № | İqtisadi fəaliyyət sahələri | İşçilərin sayı (nəfər) |
|---|---|---|
| 1 | Mədənçıxarma sənayesi | 50 |
| 2 | Tikinti sektoru | 500 |
| 3 | Emal sənayesi | 200 |
| 4 | Elektrik enercisi, qaz və suyun istehsalı | 35 |
| 5 | Topdan və pərakəndə satış, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 40 |
| 6 | Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 20 |
| 7 | Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 10 |
| 8 | Maliyyə və sığorta | 15 |
| 9 | Mehmanxana və restoran xidməti | 30 |
| 10 | Təhsil | 40 |
| 11 | Səhiyyə və sosial xidmət | 20 |
| 12 | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 10 |
| 13 | Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 25 |
| 14 | Balıqçılıq və balıqyetişdirmə | 5 |
| | **Cəmi** | 1000 |